# Vətənpərvərlik tərbiyəsində "Kitabi-Dədə Qorqud" dastanı elmi mənbə kimi

**Xatirə Pənahlı**
*Bakı Qızlar Universiteti*
**E-mail:** xatire.penahli@gmail.com

**Rəyçilər:** ped.ü.f.d., dos. G.V. Sultanova,
ped.ü.f.d., dos. P.M. Həsənova

**Açar sözləri:** pedaqogika, dastan, tərbiyə, dəyərlər, elm, dünyagörüş
**Ключевые слова:** педагогика, сага, взрастить, ценности, наука, мировоззрение
**Key words:** pedgogy, story, educate, values, science, outlook

Türkün inamı, əxlaqı, eşqi, ailə, yurd və dövlət haqqında anlayışları, mənəvi böyüklüyü dastanlarda öz əksini taparaq nəsillərdən-nəsillərə keçmişdir.

Dastanlarda türk uşaqları ilahi bir işıqdan doğulur. Qara xanın yaratdığı aləm işıq aləmidir, dənizdən çıxan qadın xəyalı işıqdan yoğrulmuşdur. Oğuz doğulduğu zaman onun üzü mavi işığa çalırdı, arvadı göydən enən bir işıqdan doğulmuşdur.

Türkün işıq sevgisi, suya, ağaca, təbiətə pərəstişi onun ilkin inamlarının əks-sədasıdır. Tanrının ilk dəfə doqquz insanı doqquzbudaqlı bir ağacın altında yaratması inamı, Oğuzun Qağanın Göy, Dağ, Dəniz adlı oğlanlarının ağac koğuşunda dünyaya gəlməsi, başqa bir ağac koğuşunda doğulan uşağa Qıpçaq adı verilməsi və s. etiqadları türkün təbiətə məhəbbətinin rəmzidir, öz mənşəyini təbiətlə bağlamaq arzusu ilə bağlıdır.

Vətənpərvərlik insanın öz vətəninə sevgi və sədaqətindən, onun tarixi, milli və mədəni dəyərləri üçün qürur hissi keçirməkdən, doğma vətənin siyasi, iqtisadi və mədəni tərəqqisi naminə çalışmaqdan və onun müdafiəsinə hər an hazır olmaqdan ibarətdir.

Vətənpərvərlik hissi insanda uşaqlıqdan tərbiyə edilməli, kiçik yaşlarından aşılanmalıdır. Bu, ailədən başlasa da, sonra uşaq bağçalarında və orta ümumtəhsil məktəblərində paralel şəkildə davam və inkişaf etdirilir. Orta məktəblərdə keçirilən ədəbi və mədəni tədbirlər uşaq psixologiyasına daha çox və tez təsir göstərir. Ədiblərimizin vətənin tərənnümü və vətənpərvərlik ruhunda yazdığı şeirlərinin müsabiqəsini təşkil etmək, nəsr əsərlərindən tamaşalar səhnələşdirmək, vətənə sədaqət, onun maddi və mənəvi dəyərlərini qorumağı təbliğ etmək vətənpərvərlik hisslərinin formalaşdırılmasında əvəzsiz rol oynayır. Keçirilən tədbirlərdə bayramlarımızdakı adət-ənənələrin, xalq dramları və oyunlarının təşkil olunması və göstərilməsi uşaqkən məktəblilərə aşılanır və onların milli ruhda tərbiyə olunmasına təkan verir.

İndiki tarixi mərhələdə Azərbaycan gənclərində vətənpərvərlik hisslərinin formalaşması Azərbaycan üçün milli demokratik dövlət quruculuğu ilə sıx bağlılıqda olmalıdır. Vətənə məhəbbət hər şeydən əvvəl dövlət quruculuğunda fəal iştirakda ifadə olunmalıdır. Doğma yurda sədaqət hər şeydən əvvəl mövcud çətinliklərdən qorxmayıb vətəndaşlıq mətanəti göstərmək deməkdir. Vətənin maraqlarını qorumaq istəyi müstəqilliyi və ərazi bütövlüyünü, millətin maddi və mənəvi dəyərlərini qorumaq kimi başa düşülməlidir. Bütün bunların mənəvi-əxlaqi stimullaşdırıcısı isə vətənin keçmişi və indiki tarixi haqqında obyektiv biliklərə əsaslanan qürur hissi olmalıdır.

Azərbaycan türklərinin etnik mənşəyini, dilini, ümumiyyətlə, mədəniyyət tarixini öyrənmək baxımından "Kitabi-Dədə Qorqud" dastanları böyük elmi əhəmiyyətə malikdir.

"Kitabi-Dədə Qorqud" oğuzların, ilk növbədə Azərbaycan türklərinin yazılı yaddaşıdır. O, türklərin Ön Asiyada o cümlədən, Cənubi Qafqazda qədim dövrlərdən məskunlaşmasını sübut edən, əsl elmi tarixi əhəmiyyəti hələ tam şəkildə müəyyən edilməmiş ən əhəmiyyətli ilkin qaynaqlardan biridir. Onun dili oğuz türklərinin dilidir. Təsadüfi deyildir ki, kitabın Drezden nüsxəsinin üzərində onun məhz oğuz dilində yazıldığına işarə edilmişdir: "Kitabi-Dədəm Qorqud alə lisani taifeyi oğuzan".

Türkiyə tədqiqatçısı M.Ergin "Kitabi-Dədə Qorqud"a yazmış olduğu ön sözdə xüsusi olaraq, qeyd edir: "Türk ədəbiyyatı tarixininən böyük alimi Fuad Köprülünün dərslərində söylədiyi bir söz vardır: "Bütün türk ədəbiyyatını tərəzinin bir gözünə, Dədə Qorqudu o biri gözünə qoysanız Dədə Qorqud ağır gələr"(1, X).

"Kitabi-Dədə Qorqud" tarixçilər və etnoqraflar üçün böyük maraq kəsb edir. Bu abidə Azərbaycanın etnotarixi keçmişi ilə bağlı ilkin yazılı qaynaqlardan biridir. O, İslamın yayılmağa bağladığı ilk dövrlərdəki tariximizin, kökümüzün, məskənimizin müəyyənləşdirilməsi üçün son dərəcə etibarlı və mötəbər bir qaynaqdır. Həmin boylarda əks olunan tariximiz Azərbaycanın şimalında, cənubunda, Şərqi Anadoluda, Borçalıda, indi Ermənistan adlanan Qərbi Azərbaycanda qədim dövrlərdən türklərin yaşadıqları ərazilərin coğrafi adlarında, toponimlərində, hidronimlərində hifz olunmuşdur. Dastanın dili bəzi arxaik ifadələr istisna olunmaqla, bu gün hər bir Azərbaycan türkünün başa düşdüyü aydın və doğma dilidir.

Dünya qorqudşünaslığı "Kitabi-DədəQorqud"un istər etnik mənşə, dil və məfkurə, istərsə də tarixi-coğrafi baxımından Azərbaycan türklərinə mənsub olması fikrini qəti şəkildə qəbul etmişdir. "Kitabi-Dədə Qorqud" Azərbaycan türklərinin etnik tarixidir, onun tarixi coğrafiyasıdır. O, bütöv bir xalqın qəhrəmanlığını özündə əks etdirən bir eposdur və Azərbaycan türklərinin etnik yaddaşının və arxaik təfəkkürünün öyrənilməsi baxımından olduqca qiymətlidir.

"Kitabi-Dədə Qorqud" boyları "türk törəyiş əfsanəsi", "özünü dərketmə", "dil birliyi", "söykökü birliyi" ilə bağlı elementləri özündə vəhdət halında birləşdirir. Onun bir tarixi mənbə kimi əhəmiyyəti də məhz bundan ibarətdir. Elə buna görə də Sovet hakimiyyəti dövründə, 1957-ci ilə qədər bu eposun öyrənilməsinə qadağa qoyulmuşdur.

Dastanda Azərbaycan xalqının söykökündən bəhs edilir, mənəvi dəyərlərini özündə əks etdirir. Milli-mədəni təfəkkürümüzün ensiklopediyası sayılan "Kitabi-Dədə Qorqud" dastanları xalqımızın qəhrəmanlıq tarixidir. Türk xalqlarının mədəniyyətini, milli dəyərlərini özündə cəmləşdirən bu dastan dünya alimlərinin də diqqətini çəkmişdir. Dastanın mahiyyətinə endikdə görə bilərik ki, o yalnız türk xalqlarının mədəniyyətini əks etdirməklə qalmır, eyni zamanda, ümumbəşəri anlam da daşıyır. Dünya səviyyəsində bu dastanın öyrənilməsinin çox müsbət yanı vardır ki, onlara misal olaraq Azərbaycan xalqının milli kimliyinin, milli dəyərlərinin tanınmasıdır. Və bütün bunlar türk xalqlarına məxsus əxlaqı, dini, mənəvi keyfiyyətlərin tədqiqinə səbəb olub. Xalq yazıçısı Anarın dediyi kimi, "Hər bir xalqın ədəbi irsi nə qədər zəngin olsa da, ya bir, ya iki ana kitaba malikdir. "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqının mənşəyini, mənliyini, məskənini təsdiq edən, keçmişini və gələcəyini müəyyənləşdirən, fəlsəfi və əxlaqi baxışlarını, dünyagörüşünü, etik və estetik dəyərlərini göstərən, xasiyyətinin, məcazının, davranışının ən incə psixoloji çalarlarını açan, torpağın ətrini və rəngini, dağlarının əzəmətini, meşələrinin, çaylarının, bulaqlarının sərinliyini, çöllərinin, düzlərinin genişliyini canlandıran şah əsəridir"

Zaman keçdikcə dastan pedaqoji aspektə araşdırılmağa başlanılmışdır. Bu baxımdan Ə.Ağayev, Ə.Həşimov, Ş.Məmmədov, R.Hüseynzadə və başqalarının araşdırmaları əhəmiyyətlidir.

Dastanda maraq doğuran maraqlı cəhətlərdən biri də oğuzların tərbiyə sistemidir. Bu sistemin əsas qolunu isə oğuz gənclərinin hərbi-vətənpərvərlik tərbiyəsi təşkil edir. Dastanda bu cəhətə daha çox önəm verilməsini professor Pənah Xəlilov belə əsaslandırır: "Dədə Qorqud" qəhrəmanlıq dastanıdır və gənclərin təhsil zamanı göstərdiyi səyi, istedadı təsvir etməkdən daha çox onun igidliyi, şücaəti, döyüş məharəti, alplıq hünəri, alpların məşqləri, güləşləri, bir-birini sınamaları təsvir və tərənnüm üçün tipik sayılır".

"Kitabi-Dədə Qorqud" dastanı üzərində tədqiqatçı P. Həsənova da araşdırma etmiş və dissertasiya işini bütövlükdə bu mövzuya həsr etmişdir. Araşdırmalarından məlum olmuşdur ki, şəxsiyyətin formalaşması probleminin həllində bu dastanın möhtəşəm tərbiyəvi mahiyyəti vardır.

Dastanda böyüklərə, valideynlərə hörmət, doğma yurda, vətənə, torpağa məhəbbət tərbiyəsi tam dolğunluğu ilə aydın şəkildə verilmiş və bu məsələlərin müasir baxımdan dərk olunması, həmin tərbiyəvi hisslərin yeni nəsillərə ötürülməsi vacibdir.

"Kitabi-Dədə Qorqud" dastanı ilə bağlı H.F.Dits, C.Lyunsun, V.Bartold, M.Ergin, Ə.Dəmirçizadə, S.Əlizadə, Ş.Cəmşidov, K.Abdullayev, N.Cəfərov, T.Hacıyev və digər alimlər müxtəlif aspektlərdə tədqiqatlara aparmışdır.

"Kitabda vətənpərvərlik motivləri Bayandır xan, Qazan xan, Bamsı Beyrək və digər Oğuz qəhrəmanlarında daha çox müşahidə olunur. Döyüşə hazırlıq, ana vətənin müdafiəsi kimi məsələlərə isə boyların hər birində yer ayrılır.Bu məsələləri təbii ki, oxumaq, öyrənmək, tədqiq etməklə kifayətlənmək olmaz. Bu gün həmin məsələlərə təhsil müəssisələrində, ailələrdə xüsusi diqqət verilməsi vacibdir.

Bu gün hər bir Azərbaycan övladını itirilmiş torpaqlarımızın düşməndən azad edilməsi, ərazi bütövlüyümüzün bərpası, Azərbaycanın qüdrətli dövlət kimi möhkəmləndirilməsi və inkişafı məsələləri düşündürür. "Kitabi-Dədə Qorqud" bu baxımdan nəsillərdə dövlətçilik şüurunun, milli köklərə bağlılıq hissinin formalaşdırılmasında zəngin mənbə rolunu oynayır." İntiqam Cəbrayılovun sözlərindən anlamaq olur ki, Hər cür tərbiyə, o cümlədən də hərbi-vətənpərvərlik tərbiyəsi cəmiyyət qarşısında ailənin ən mühüm vəzifəsi hesab edilir. Hətta oğuz gənclərinin adqoyma mərasimi də onların igidliyi, göstərdiyi hünərlə bağlıdır. Oğuz adətlərinə görə uşaqlara göstərdiyi hünərə uyğun el ağsaqqalı Dədə Qorqud ad verir.

Əlavə olaraq qeyd etmək lazımdır ki, dastanda mərdlik, igidlik dərslərini təkcə oğlanlar deyil, qızlar da keçirlər. Dastandakı qadın qəhrəmanlar da at minməyi, ox atmağı, qılınc qurşanmağı, güləşməyi bacarır, lazım gəldikdə döyüşə də girərək mərdliklə vuruşaraq düşmənə qalib gəlirlər. Dastanın əsas qadın qəhrəmanları: Dirsə xanın xatunu, Burla xatun, Banuçiçək, Selcan xatun belə qadınlardandır.

Vətənpərvərlik, döyüş ənənələri, cəsurluq, igidlik dastanın bütün ruhuna hakimdir. Gənclərin tərbiyəsində başlıca prinsip vətənə məhəbbət, düşmənə nifrət hissinin aşılanması, döyüş silahlarından istifadə qabiliyyətinin formalaşdırılması və fiziki tərbiyədir. Polad biləkli, şir cüssəli oğuz igidləri nəinki düşmənə, hətta vəhşi heyvanlara da qalib gəlirlər: həm gücləri, həm də ağıl və düşüncələri ilə.

Dastanın pedaqoji mahiyyətindən, aparılan araşdırmalardan anladıq ki, müasir gənclərimizdə vətənpərvərlik keyfiyyətlərini formalaşdırmaq üçün siyasi və ictimai tərbiyə işinin effektliyini artırmaq, onların dünyagörüşünü inkişaf etdirmək, milli-mədəni folklor nümunələrimizdən örnəklərlə özünütərbiyəsinə diqqəti artırmaq, sosial əhəmiyyət kəsb edən ideyaların, normaların və prinsiplərin mənimsənilməsinə yönəldilmiş fəallığı stimullaşdırmaq vacib milli-psixoloji problemdir.

Beləliklə, milli-mənəvi dəyərlərə bağlılıq insanda ilk vaxtlarda vətənpərvərlik hisslərini

gücləndirir və sonrakı mərhələlərdə insanın əsl vətəndaş olmasında birbaşa rol oynayır.

**Məqalənin aktuallığı**. Tədqiqatlar göstərir ki, təkcə müasir dövr materialları, texnologiyaları, innovasiyaları deyil də qədim mədəni nümunələrimiz, dastanlar, nağıllar və başqa xalq yaradıcılıq nümunələrimizin pedaqogikada rolu böyükdür. Və qətiyyətlə qeyd edə bilərik ki, şəxsiyyətin inkişafı tarixi, mədəni zəmin üzərində qurulmalıdır.

**Məqalənin elmi yeniliyi**. Məqalədə əks edilmiş fikirlər, tədqiqatlar "Kitab-i Dədə Qorqud" dastanının təkcə dövrümüz üçün deyil, eyni zamanda gələcək nəsillər üçün də pedaqoji prosesdə mühüm əhəmiyyət kəsb edir. Əks olunmuş yeniliklər milli-mənəvi dəyərlərimizin öyrənilməsində dastanların, xüsusilə "Kitab-i Dədə Qorqud" dastanın elmi, mənəvi mahiyyətini göstərir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Həsənova P.M. "Kitabi-Dədə Qorqud" dastanında mənəvi tərbiyə məsələləri. Bakı: Mütərcim, 2015.

2. Rəhimov N. "Kitabi-Dədə Qorqud" dastanında milli-mənəvi dəyərlərimizin əksi. Bakı. 2014.

3. Ergin M. Dede Korkut Kitabı. İstanbul: Milli Egitim Basımevi, 1971.

4. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. İkinci nəşri / S.S. Əliyarlının redaktəsi ilə. Bakı: Çıraq, 2009.

5. Mahmudlu Y.M. "Kitabi-Dədə-Qorqud" tarixi mənbə kimi və ya türkün çağlayan tarix bulağı // "Altay dünyası", 1997.

6. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Çıraq, 2007.

7. Əlizadə. S. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər, 2004.

**Х. Панахли**

## Эпос «Китаби-Деде Горгуд» как научный источник в патриотическом воспитании
## Резюме

В статье рассматривается место эпоса «Китаби-Деде Горгуд» в педагогике. Исследователи ссылаются на свои исследования. Подчеркивается важность роли личности в развитии личности. Его концептуальная сущность воспринимается как образовательная основа образования.

**Kh. Panahli**

## The epic "Kitabi-Dede Gorgud" in patriotic education is a scientific source
## Summary

The article deals with the place of the epic "Kitabi-Dede Gorgud" in pedagogy. Investigators are referred to their research. The importance of the role of personality in the